# Vaşinqtonda tarixi saziş: Qələbələr silsiləsində növbəti diplomatik uğur



Vüqar İSGƏNDƏROV,
Milli Məclisin deputatı.

**Azərbaycan Vətən müharibəsində qazandığı şanlı Qələbə, ardınca qısamüddətli antiterror tədbirlərində həlledici uğurlarla ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Bu hərbi nailiyyətlərin məntiqi davamı isə diplomatik müstəvidə 8 avqustda Vaşinqtonda imzalanan tarixi sülh sazişi ilə təmin olundu. Prezident İlham Əliyev sülh yaradan, barış və tərəqqi gətirən lider olaraq adını dünya tarixinə yazdırdı.**

Bu böyük tarixi mərhələdə şübhəsiz ki, ABŞ prezidenti Donald Trampın rolu xüsusi vurğulanmalıdır. Eyni zamanda, bütün təzyiqlərə, daxildəki revanşist qüvvələrə, xaricdəki radikal lobbilərə və antisülh dairələrinə baxmayaraq, Ermənistan baş naziri Nikol Paşinyanın siyasi iradə göstərərək sülh prosesində iştirak etməsi diqqətəlayiqdir. Paşinyan bu addımı ilə Ermənistanın gələcəyinə yeni baxış formalaşdırdı. İki ölkə arasında imzalanan bu sənəd normallaşmanın və qarşılıqlı etimadın əsasını qoyur. ABŞ Prezidenti hər iki lideri "güclü və möhtəşəm liderlər" adlandıraraq təşəkkürünü bildirdi.

Bölgədə yeni siyasi arxitektura formalaşır və bu prosesin əsas müəllifi, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevdir. 8 avqust tarixi Azərbaycanın milli maraqlar və dövlətçilik baxımından qızıl hərflərlə yazılacaq günlərdən biri kimi yadda qalacaq. Vaşinqton görüşündə iki mühüm məsələ də həllini tapdı: ATƏT-in Minsk qrupunun fəaliyyətinə son qoyulması və Zəngəzur dəhlizinin açılması ilə bağlı razılıq əldə olundu. Bu qərarlar bölgədə kommunikasiyaların tam bərpasına, regionun gərginlik ocağı statusunu itirərək sülh və əməkdaşlıq məkanına çevrilməsinə zəmin yaradır.

Beynəlxalq təbriklər və dəstək mesajları göstərir ki, Azərbaycan artıq dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Prezident İlham Əliyev isə qlobal liderlər sırasındakı mövqeyini getdikcə möhkəmləndirir. Bu uğurlar hər bir azərbaycanlını qürurlandırır və gələcəyə inamı daha da artırır. ■

Respublika .- 2025.- 10 avqust(№166).- S.13.